# Xatirəsinin əbədiləşdirilməsi

- 1972-ci ildə Ümum-milli lider Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyi münasibətilə ustad aşığın Göyçənin Ağkilsə kəndində yerləşən məzarı üzərində abidəsi ucaldılmışdır.



- 1975-1980-ci illərdə Respublika Xalq Yaradıcılığı Evi Aşıq Ələsgərin adını daşımışdır.

- 2002-ci ildə əslən Göyçədən olan Hüseyn Həsənov sənətkara dərin ehtiramının nümunəsi olaraq Bakıda öz evində yaratdığı Aşıq Ələsgər muzeyində ustad aşığımızın sazı və bəzi əşyaları ilə yanaşı, üç mindən artıq eksponat, lent yazıları və kasetlər qorunub saxlanılır .






- 2006-cı ildə Xaçmaz rayonunda yaradılan Şəxsiyyətlər Muzeyi ərazisində Azərbaycanın 59 nəfər tanınmış ziyalı, şair, yazıçı, mədəniyyət və incəsənət xadimləri ilə yanaşı Aşıq Ələsgərin də büstü ucaldılmışdır.

- Anadan olmasının 190 illik yubileyi münasibətilə Azərbaycan Aşıqlar Birliyi 2011-ci ili "Aşıq Ələsgər" ili elan etmişdir.

- Gədəbəydə “Aşıq Ələsgər adına Aşıq Məktəbi” açılmışdır.

- Bakının Xətai rayonunda Ukrayna dairəsi ilə, Seyid Mirhəsən ağa və Rahib Məmmədov küçəsi ilə kəsişən küçəyə Aşıq Ələsgərin adı verilmişdir. Küçə 1915-ci ildə əsaslı təmir edilmişdir.



- 2018-ci ildə Qazax şəhərində xatirəsinə büstü ucaldılmışdır.

- 2019-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may, 211 nömrəli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

- 2021-ci il 18 fevral tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır;

– “Dədə Ələsgər Ocağı” İctimai Birliyi təssis olunmuşdur

- 2021-ci ildə Dədə Ələsgər Ocağı” İctimai Birliyi yaradılmışdır.